# AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ

# SÜNİ İNTELLEKTİN TƏTBİQİ ÜZRƏ SİYASƏT SƏNƏDİ

**Bakı-2025**

# SÜNİ İNTELLEKTİN TƏTBİQİ ÜZRƏ SİYASƏT SƏNƏDİ

## Giriş

Bu siyasət sənədi Azərbaycan Texniki Universitetində (AzTU) süni intellekt (Sİ) texnologiyalarının məsuliyyətli və etik istifadəsini tənzimləyir. Sənəd ESG 2015 çərçivəsi və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi əsasında hazırlanmışdır. Sənədin əsas məqsədi universitetin idarəetmə, tədris, qiymətləndirmə və inkişaf proseslərində Sİ-nin tətbiqini tənzimləmək və bu tətbiqin risklərini və imkanlarını müəyyən etməkdir.

## 1. Hüquqi və Normativ Əsaslar

| **Milli Qanunvericilik** | **Beynəlxalq Standartlar və Etik Çərçivələr** |
|---|---|
| "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu<br>"Məlumatların informasiyalaşdırılması haqqında" Qanun<br>"Fərdi məlumatlar haqqında" Qanun<br>Təhsil Nazirliyinin Akkreditasiya Qaydaları və Meyarları | ENQA ESG 2015 – Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı Standartları və Təlimatları<br>OECD Recommendation on AI (2019)<br>UNESCO Recommendation on the Ethics of AI (2021) |

## 2. Əhatə dairəsi

Bu siyasət AzTU-nun bütün akademik və inzibati strukturlarında tətbiq edilir. Aşağıdakı sahələr əhatə olunur:

- Tədris və təlimin idarə olunması
- Qiymətləndirmə və nəticələrin monitorinqi
- Tələbə xidmətləri və dəstək mexanizmləri
- Elmi-tədqiqat və inkişaf sahələri
- Qərar qəbuletmə və strateji planlaşdırma

### 3. Fürsətlər və Risklər

| Tətbiq Sahəsi | Fürsətlər | Risklər | Risk Səviyyəsi | Azaltma Strategiyası |
|---|---|---|---|---|
| **Tədrisin idarə olunması** | Dərs planlarının optimallaşdırılması | Akademik muxtariyyətin zəifləməsi | Orta | Pilot layihələr və insan nəzarəti |
| **Tələbə performansı** | Riskdə olan tələbələrin erkən aşkarlanması | Məxfilik və qərəz riski | Yüksək | Anonimləşdirmə, etik kodlar |
| **Qiymətləndirmə və analiz** | Plagiatın aşkarlanması və obyektivlik | Kontekstsizlik | Orta | Əl ilə yoxlamalarla tamamlanma |
| **Rəy analizi** | Operativ təkmilləşdirmə | Yanlış təfsir | Orta | Əl ilə kombinasiya, NLP etibarlılığı |
| **Akkreditasiya və sənədlər** | Hazırlıq prosesinin sürətlənməsi | Avtomatlaşdırmaya həddindən artıq güvən | Aşağı | Yarı-avtomatik sistemlər |
| **Müəllim performansı** | Təlim ehtiyaclarının düzgün təhlili | Səhv nəticələr | Orta | Alqoritmik şəffaflıq |
| **Elmi fəaliyyət** | Tədqiqat trendlərinin aşkarlanması | Etibarsız mənbələr | Aşağı | Etik və elmi təsdiqləmə |
| **İdarəetmə qərarları** | Strateji planlamanın dəstəklənməsi | Şəffaf olmayan nəticələr | Orta | Dairəvi qiymətləndirmə və kommunikasiya |

## 4. Süni İntellektin Tətbiq Sahələri

### 4.1. Öyrənmə Analitikası və Performans Monitorinqi

Tələbə nailiyyətləri, iştirak və fəaliyyət məlumatlarının təhlili

Riskdə olan tələbələrin erkən aşkarlanması və dəstək tədbirləri

### 4.2. Avtomatlaşdırılmış Məlumat Toplama və Hesabatlar

Kurs qiymətləndirmələri, məzun təhlili, dərs bölgüsü və s. üzrə məlumatların avtomatik toplanması

Vizual hesabatların və dashboardların avtomatlaşdırılması

### 4.3. Kurrikulum və Məzmunun Təhlili

NLP texnologiyaları ilə sillabusların əmək bazarına və akkreditasiya meyarlarına uyğunluğunun qiymətləndirilməsi

Beynəlxalq standartlarla müqayisəli məzmun analizi

### 4.4. Rəy və Sentiment Analizi

Tələbə və əməkdaş sorğularının Sİ əsaslı təhlili

Problemlərin və inkişaf sahələrinin müəyyənləşdirilməsi

### 4.5. Sənəd İdarəçiliyi və Uyğunluğun Monitorinqi

Siyasət sənədlərinin ardıcıllığının və aktual vəziyyətinin Sİ ilə izlənməsi

Normativ dəyişikliklərə avtomatik adaptasiya

## 5. Akademik İnteqrasiya və Müəllim-Tələbə Məsuliyyəti

**Kurrikulumun Yenilənməsi:** Sİ texnologiyalarının tədris proqramlarına daxil edilməsi və müvafiq fənlərin yaradılması.

**İnteraktiv Tədris Alətləri:** Sİ əsaslı tədris alətlərinin və platformalarının istifadəsi ilə interaktiv və fərdiləşdirilmiş öyrənmə mühitinin yaradılması.

**Şəffaflıq və Razılıq:** Sİ-nin istifadəsi barədə tələbələrə və müəllimlərə aydın məlumat verilməli, şəxsi məlumatların istifadəsi üçün tələbələrin razılığı alınmalıdır.

**Akademik Məsuliyyət:** Müəllimlər kurs materiallarının keyfiyyətinə və məzmununa görə məsuliyyət daşıyır, tələbələr isə Sİ-nin istifadəsi ilə bağlı müəyyən edilmiş qaydalara əməl etməlidirlər.

## 6. Təlim və Maarifləndirmə Proqramları

**Təlim Proqramları:** Müəllimlər və tələbələr üçün Sİ-nin istifadəsi, etik məsələlər və texniki bacarıqlar üzrə təlimlər təşkil edilməlidir.

**Rəqəmsal Savadlılıq:** Tələbələrin rəqəmsal savadlılığını artırmaq və Sİ texnologiyalarından düzgün istifadə etmələrini təmin etmək üçün xüsusi kurslar və seminarlar keçirilməlidir.

## 7. Süni İntellektin Etik İstifadəsi və Məsuliyyət

**İnsan Mərkəzli Yanaşma:** Sİ texnologiyalarının inkişafı və istifadəsində insan hüquqları və dəyərləri ön planda tutulmalıdır.

**Ədalət və Əlçatanlıq:** Sİ texnologiyalarının istifadəsində ədalətlilik təmin edilməli və bütün tələbələr üçün əlçatanlıq təmin olunmalıdır.

**Şəffaflıq və Hesabatlılıq:** Sİ sistemlərinin qərar qəbuletmə prosesləri şəffaf olmalı və istifadəçilər bu qərarların necə verildiyini başa düşməlidirlər.

## 8. Davamlı Təkmilləşdirmə və Monitorinq

Sİ alətlərinin effektivliyinin periodik qiymətləndirilməsi

Yeni texnologiyaların və rəylərin təhlili əsasında siyasətin yenilənməsi

Monitorinq hesabatlarının illik əsasda Elmi Şuraya təqdim edilməsi

9. **Məsuliyyət və İcra**

**Keyfiyyətin Təminatı Şöbəsi:** Ümumi siyasətə nəzarət, uyğunluğun monitorinqi

**İT İdarəsi və Rəqəmsal Transformasiya Mərkəzi:** Texniki tətbiq və infrastruktur dəstəyi

**Struktur Bölmələr:** Tətbiq sahələrində fəaliyyətlərin yerinə yetirilməsi və hesabatlıq

**Elmi Şura:** Siyasətin qəbul olunması və dəyişikliklərin təsdiqi

**Nəticə**

Süni intellektin AzTU-da keyfiyyət təminatı sistemlərinə inteqrasiyası universitetin strateji inkişaf hədəflərinə uyğun olaraq daha çevik, məlumat əsaslı və effektiv idarəetməyə şərait yaradır. Lakin bu proses yalnız etik normalara, şəffaflığa, insan nəzarətinə və qanunvericiliyə uyğun şəkildə həyata keçirilməlidir.

**Hazırladı:**

Nərmin Xasayeva,

Akademik keyfiyyətin qiymətləndirilməsi mütəxəssisi

İmza:_________________

**Təsdiqlədi:**

Pərvanə Mövsümova,

Keyfiyyətin təminatı şöbəsinin müdiri

İmza:_________________